# Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza başlayanda əllərini çiyinləri səviyyəsində qaldırardı,

İbn Ömərdən (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza başlayanda əllərini çiyinləri səviyyəsində qaldırardı, həmçinin rukuya getmək üçün təkbir gətirdikdə və başını rukudan qaldırdıqda da əllərini qaldırardı və "Səmiallahu limən həmidəh, Rabbənə və ləkəl-həmd" deyərdi, səcdə edərkən isə bunu etməzdi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz əsnasında üç yerdə əllərini çiyin səviyyəsində qaldırardı ki, bu da çiyin sümüyü ilə qol sümüyünün birləşdiyi yerdir. Birinci yer: Namaza ihram (açılış) təkbiri ilə başladıqda. İkincisi: Rukuya getmək üçün “Allahu Əkbər” dedikdə. Üçüncüsü: Rukudan başını qaldırdıqda və "Səmiəllahu limən həmidəh, Rabbənə və ləkəl-həmd" dedikdə. Nə səcdə etməyə başlayanda, nə də səcdədən qalxarkən əllərini qaldırmazdı.

https://sunnah.global/hadeeth/az/show/3095